# SAĞLAMLIĞIN QORUNMASI, MÜASİR ELMİ-PRAKTİKİ YANAŞMA

**Xanağa Babayev, Mahir Muxtarov, Pərvanə Şükürova**

*AR ETN Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu, Bakı*
*khanagafiz@gmail.com*

Qədim Çin təbabətinə görə, insanın normal ömrü 120 il olmalıdır. Bizim müasirimiz Xeyflik bioloji (sitoloji) və tibbi tədqiqatlara əsaslanıb hesab edir ki, insan ən azı 115 il bioloji ömür sürə bilər. Amma həyat göstərir ki, bu heç də hamıya nəsib olan səadət deyil. Ayrı-ayrı ölkələrdə əhalinin orta yaş həddi müxtəlifdir, bəzi ölkələrdə bu demoqrafik göstərici xeyli aşağı, iqtisadi və tibbi nailiyyətlərə görə qabaqcıl ölkələrdə isə

nisbətən yüksəkdir. Hazırda ölkələr arasında demoqrafik göstəriciləri yaxşılaşdırmaq sahəsində, belə demək mümkünsə yarış gedir. Azərbaycan da onların sırasındadır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatlarına görə, hazırda dünya əhalisi arasında qeydə alınan xəstəliklərin sayı bir neçə yüzü keçir. Bizdə bir çox xəstəxanalar və müalicə mərkəzləri əla binalarda yerləşsə də, ən müasir tibb avadanlıqlar ilə təchiz olunsa da, yüksək ixtisaslı peşəkar həkimlər, uğurlu kliniki tədqiqatlar və tibb üçün faydalı təcrübi (eksperimental) və nəzəri araşdırmaları yerinə yetirməyə qadir olan klinisist və fizioloq alimlər, onlara yardımçı ola biləcək digər elm sahələrinin mütəxəssiləri olsa da, xəstəliklər bizdə hələ də qorxunc həddədir. Bu gün biz Bakının, yaxud da Azərbaycanın rayon mərkəzlərinin xəstəxanalarına baş çəksək, həkimlərə müraciət edən insanlarımızın heç də az olmadığı qənaətinə gələrik.

İnsanların sağlamlığına zərərli təsir göstərən və onları xəstələndirən amilləri (faktorları) şərti olaraq təbii və antropogen (insanların əməllərindən irəli gələn) faktorlara ayırmaq olar. Təbii və antropogen faktorlar öz növbəsində təsir qüvvəsi, müddəti, diapazonu, hədəfləri və effektliyinə görə qruplara və yarımqruplara bölünür.

Təbii faktorlar arasında aşağıdakılar sağlamlıq üçün daha təhlükəli sayılır:

1. Kosmik və yer təbiətli, radioaktiv parçalanma ilə bağlı olan ionlaşdırıcı şüalar;
2. Günəş və yerin tsiklik elektromaqnit qasırğaları;
3. Kəskin iqlim dəyişiklikləri;
4. Patogen viruslar və mikroorqanizmlər.

İnsan sağlamlığı üçün çox zərərli olan antropogen amillərə aşağıdakılar daxildir:

1. Ətraf mühitin – havanın və içməli suların zəhərli sənaye qazları və digər tullantılarla çirklənməsi;
2. Kənd təssərrüfatı yeyinti (qida) məhsullarına gübrə və herbisidlərin zərərli kimyəvi qalıqlarının həddən ziyadə hopması;
3. Yeyinti məhsullarının sənaye istehsalında lif mənşəli kimyəvi əlavələrdən geniş istifadə edilməsi;
4. Kimyəvi sintezlər ilə yaradılan sintetik dərman vasitələrinin kütləvi istehsalı və tətbiqi.

Bütün bu amillər insan orqanizminin genetik (irsi) əsaslarında, əsəb fəaliyyətində, ürək, qan-damar, tənəffüs, həzm, dayaq-əzələ və digər sistemlərində, maddələr mübadiləsində, tənzimləyici mexanizmlərdə, böyümə və inkişaf proseslərində, o cümlədən, reproduktiv funksiyalarında, immunitet və adaptasiya qüvvələrində, davranışlarında, əmək və yaradıcılıq fəallığında ağır fəsadlar, müxtəlif pataloji vəziyyətlər, irsi, somatik, daxili və yoluxucu xəstəliklər, zəhərlənmə halları törədir, onun uzunömürlülüyünə və rifahına mənfi təsir göstərir.

Bəzi inkişaf etmiş ölkələrdə əhalinin sağlamlığı, əmək fəallığı və uzunömürlüyü ilə iqtisadi yüksəliş arasında qarşılıqlı asılılıqlar məsələsi konseptual və empirik tədqiqatlar səviyyəsində öyrənilir. Alimlərin fikrincə, hər hansı ölkənin əhalisinin genetik, fiziki, əqli, mənəvi sağlamlığı və uzunömürlüyü müxtəlif kanallarla onun iqtisadi inkişafına, elmi-texniki tərəqqisinə, yeni texnoloji və innovativ ideya və layihələr ilə zənginləşməsinə, mədəni səviyyəsinə birbaşa və dolayı yolla təsir göstərir, hər iki qrup göstəricilər arasında sıx korrelyasiyalar yaradır. İqtisadi yüksəlişi ləngidən çoxsaylı səbəblər arasında əhalinin, daha doğrusu işlək əhalinin qeyri-qənaətbəxş sağlamlığı ən ehtimal olunan faktorlara aid edilir. Yeni iqtisadi modellər və nəzəriyyələr sayəsində isbat olunub ki, əhalinin sağlamlıq vəziyyəti ölkədə iqtisadi dirçəlişə və əksinə səbəb olur. Harada əhalinin sağlamlığı möhkəmdir və insanlar uzunömürlüdürlər, orada iqtisadi və sosial-mədəni şərait də etibarlı və müsbət dinamika qazanır və əksinə, harada yüksək iqtisadi və mədəni durum var, orada insanların sağlamlığı və uzunömürlüyü də artır.

Bu məsələlərdə elmi araşdırmalar və alimlərin tövsiyələri bəzi ölkələrdə hökümətlərə əsas verir ki, "Sağlamlıq kapitalı" iqtisadi, elmi-texniki, əxlaqi-mənəvi və mədəni inkişafa güclü təsir edən mühüm biososial faktor kimi nəzərə alsınlar. Bəzi qərb alimləri hesab edirlər ki, hər hansı ölkədə insanların sağlamlıq vəziyyəti həm onların ömürlərinin uzanması, onlarda sağlam həyat tərzinin möhkəmlənməsi kimi, həm də digər analoji indikatorların (5 yaşadək olan uşaqların ölümü, şikəst şəxslərin sayı, işlək əhalinin miqrasiyası və s.) məcmusu kimi qiymətləndirilməlidir. Göstərilir ki, belə neqativ indikatorlar perspektiv iqtisadi yüksəlişə və digər sosial münasibət və dəyərlərə təsir edən mühüm faktorlara aid edilməlidir.

Yuxarıda qeyd olunduğu kimi, bizdə əhalinin sağlamlığı hələ ki, problem olaraq qalmaqdadır. Alimlərimizin, qabaqcıl tibb mütəxəssislərimizin borcudur ki, sağlamlıq və iqtisadi artım, xəstəlik və müalicə,

uzunömürlülük və ona təminat verən tibbi-bioloji və sosial tədqiqatların təşkili məsələləri üzrə yeni səmərəli layihələr işləyib elmi ictimaiyyətimizə və dövlətimizə təqdim etsinlər. Hesab edirik ki, ölkəmizdə yeni dövr üçün yararlı olan Milli İnnovasiya sistemi (və ya şəbəkəsi) qurulmalıdır. Bunun üçün ciddi düşünmək və iş görmək lazımdır. Bu iş o zaman müvəffəqiyyətli ola bilər ki, 1) bu sahədə qabaqcıl ölkələrin təcrübəsini mənimsəmək; 2) milli İnnovasiya Sisteminin zəruriliyini dərk və qəbul etmək; 3) bu sahədə prioritet məsələlərdə konsensuslara nail olmaq; 4) təhsilin bütün pillələrində yüksək keyfiyyət uğrunda çalışmaq; 5) yeni, sərfəli elmi tədqiqatlara, texnologiyalara və innovativ layihələrə özəl və dövlət sektorundan ciddi sifarişlərin verilməsi və onları reallaşdırmaq üçün lazımi səviyyədə maliyyə resurslarını yaratmaq; 6) innovativ sistemdə qazanılan nailiyyətlər bankının təşkili və ondan istifadə qaydalarının hüquqi tərəflərini işlənib hazırlamaq; 7) elmə, yeni texnoloji və innovativ tədqiqatlara cəmiyyət və dövlət səviyyəsində yeni kriteriyalar üzrə münasibətlər qurmaq.

Milli İnnovasiya Sisteminin fəaliyyətində lazımi dinamika və effektivlik naminə yeni iş metodları, yeni texnoloji layihələr və innovativ klasterlər ilə çıxış edən ayrı-ayrı intellektual və kreativ qruplar və şəxslər qiymətləndirilməli, onların təşəbbüsləri diqqətdən yayınmamalı, innovasiyalar sahəsində qərarların qəbulu kollegial və mərkəzləşdirilmiş qaydada olmalıdır. İnnovasiya Sisteminin öz sərt hüquqi qaydaları, tədbirli Nizamnaməsi qüvvəyə minməlidir. Bu kimi məsələlər innovasiya sahəsində çalışan bizim ekspertlərin Avropa Komissiyasının TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı) ekspertləri ilə 2018-ci ildə Bakıda birgə keçirdiyi elmi-praktik seminarda geniş müzakirə edilmişdir. Azərbaycanda tibbi-bioloji təmayüllü kompleks elmi tədqiqatlar akademik və tibbi nöqteyi nəzərdən böyük əhəmiyyət kəsb edir. Bu tədqiqatların başlıca məqsədi insan sağlamlığı və insan ömrünün uzadılması kimi bəşəri xidmətlərə öz tövsiyəsini verməkdir. İnsanlarımızın sağlamlığının təmin olunmasında bizim ölkəmizin təbii müalicə vasitələri - unikal naftalan nefti, dərman bitkiləri, mineral suları, iqlim və coğrafi şəraiti çox böyük rol oynayır. Bizim floramızda 300-ə yaxın dərman bitkisi mövcuddur. Onların sırasında zəfəran, biyan kökü, çay tikanı, sumax, acı yovşan və başqa florotik nümayəndələr xüsusi yer tutur, ənənəvi xalq təbabətimizdə və rəsmi tibbi müalicə praktikamızda onlardan geniş istifadə olunur. Lakin müalicəvi naftalan nefti və yuxarıda adları çəkilən dərman bitkiləri ilə əlaqədar olan nümunəvi elmi aspektlər hələ ki, kölgədədir.

Çox güman ki, bizim yanaşmamız aşağıdakı konkret vəzifələri yerinə yetirməyi nəzərdə tutur: 1. bitki mənşəli müalicəvi fizioloji fəal maddələrin spesifik nomenklaturasının tərtibatı, klinik sınaqlara tövsiyə edilən fizioloji fəal maddələr və biotənzimləyicilər üçün ayrıca sertifikatların hazırlanması, bitki mənşəli qiymətli preparatların daxili və xarici farmakoloji təşkilatlara təklif edilməsi məsələsinin aktuallaşdırılması; 2. xüsusi əhəmiyyət kəsb edən yabanı dərman bitkilərinin kultural halda kütləvi becərilməsini və istehsalını təmin edən iri Aqroparkların yaradılması; 3. bitki mənşəli yeni dərman preparatlarının insanın sağlamlığı və yaş həddinin artırılması üçün tətbiqi məsələləri üzrə kompleks xarakterli geniş tibbi-bioloji tədqiqatlara önəm verilməsi.

Yüksək iqtisadi və mədəni quruculuq və inkişaf sahəsində böyük uğurlar qazanmış Respublikamızda son illər elmi, texniki, texnoloji və mühüm əməli əhəmiyyət kəsb edən digər istiqamətlərdə innovasiya məsələləri üzrə əsaslı araşdırmalar və kreativ təkliflər milli düşüncə və təfəkkür tərzinin ayrılmaz bir xüsusiyyəti kimi formalaşır. Konseptual ideya və innovativ təkliflər paketi kimi təqdim edilən bu işdə həmin aspektdə irəli sürülmüş mühüm elmi-praktik dəyəri olan yeni bir təşəbbüsdür.